# KÜRDƏMİR: KƏNDLƏRİMİZİN YENİ DÖVRÜ YAŞANIR

**Ölkəmizdə davam edən böyük quruculuq işləri, bir sıra transmilli layihələrin həyata keçirilməsi, sosial-iqtisadi inkişafın dinamikliyinə nail olunması, sözsüz ki, aparılan daxili və xarici siyasətimizin danılmaz uğurlarıdır. Son illər bir çox mühüm vəzifələrin həyata keçirilməsi ilə yanaşı, qeyri-neft sektorunun da məqsədəuyğun formalaşması daha böyük nailiyyətlərdən xəbər verir. Kənd təsərrüfatının regionlara xarakterik tənzimlənərək inkişaf etdirilməsi kəndlərimizin həyatını bütün istiqamətlərdə canlandıraraq gələcəyə inam yaradır, insanları ikiqat ruhlandırır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu sahəyə xüsusi diqqət və qayğısı yeni uğurlara yol açır, kəndlərimizin, bərəkətli torpaqlarımızın sanki yeni bir tarixi yaşanır.**

Və bütün sahələr üzrə işlər ruh yüksəkliyi ilə davam edir. Pambıqçılıq, bağçılıq, tərəvəz-bostançılıq və digər sahələr də artıq taxılçılıq və maldarlıq kimi genişmiqyaslı əhatə yaradır. Azərbaycan məhsulları dünya bazarlarına çıxır.

Kürdəmir rayonunda da belədir. Tikinti-quraşdırma, abadlıq və müasirləşdirmə işləri, sənaye istiqamətlərinin artırılması və digər tədbirlərlə yanaşı, kənd təsərrüfatının da keçmiş şöhrəti bərpa edilir. Bütün bunlar barədə hər dəfə geniş məlumat verən Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Ceyhun Cəfərov 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş ümumrayon yığıncağında da ətraflı danışıb. C.Cəfərov deyib:

- Azərbaycan Respublikası regionlarının sosial iqtisadi inkişafı Dövlət Proqramının icrası ilə əlaqədar Respublikamızın hər bir regionunda olduğu kimi rayonumuzda da nailiyyətlər olmuş, yeni iş yerlərinin yaradılması istiqamətində böyük və ardıcıl işlər görülmüşdür. Rayonda pambıqçılığın, baramaçılığın, maldarlığın, narçılığın, üzümçülük və taxılçılığın, yeni istixanaların tikilməsi, balıq göllərinin yaradılması, ümumilikdə kənd təsərrüfatının bütün sahələrinin inkişaf etdirilməsi istiqamətində mühüm addımlar atılmışdır. Sahibkarlığın inkişafı üçün Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə 2017-ci ilin 9 ayında Kürdəmir rayonunun 16 sahibkarına 136 min 500 manat məbləğində kredit verilmiş və nəticədə 25 yeni iş yeri yaradılmışdır. Rayonunun sosial-iqtisadi inkişafı Proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi nəticəsində 2017-ci ilin 9 ayı ərzində 1884 yeni iş yeri açılmış, bunlardan 1854-ü daimi iş yerləridir. Cənab Prezidentimizin tapşırığına əsasən və eyni zamanda rayonun sosial-iqtisadi inkişafı Proqramında nəzərdə tutulmuş tədbirlərin





həyata keçirilməsi nəticəsində 2017-ci ilin 9 ayında rayonumuzda fəaliyyət göstərən idarə, müəssisə və təşkilatlarda müvəqqəti xarakterli 261 nəfər işlə təmin olunmuşdur. Hər il olduğu kimi bu ildə "Əmək yarmarkası" keçirilmiş, yarmarkada 40 müəssisədən 281 boş iş yeri təqdim olunmuş, 78 nəfər daimi işlə təmin olunmuş, 20 nəfər peşə hazırlığı kursuna, 18 nəfər isə haqqı ödənilən ictimai işlərə cəlb olunmuşdur. Əhalinin özünüməşğulluğunun təmin olunması ilə əlaqədar özünəməşğulluq proqramına uyğun olaraq 17 nəfərin biznes planı müsbət qiymətləndirilmiş, onların hamısı aktivlərlə təmin olunmuşlar. 2017-ci ilin 9 ayında ötən ilin müvafiq dövrü ilə müqayisədə rayonumuzda ümumi məhsul buraxılışı 0,9 faiz artaraq 252 milyon 860,8 min manat təşkil etmişdir. Ümumi məhsul buraxılışının 66,4 faizi istehsal, 33,6 faizi xidmət sahələrində olmuşdur. Bunun 18,4 faizini sənaye, 41,8 faizini kənd təsərrüfatı, 6,1 faizini tikinti, 1,3 faizini nəqliyyat, 0,2 faizini rabitə, 32,2 faizini isə ticarət sahələri təşkil edir. Hesabat dövründə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq rayonumuzda aqrar sektorun inkişafı diqqət mərkəzində saxlanılmışdır. Cənab Prezidentimizin qeyd etdiyi kimi kənd təsərrüfatının hər bir sahəsi bizim üçün cox vacibdir. Odur ki, biz çalışmalı, kənd təsərrüfatının bütün sahələrini maksimum dərəcədə inkişaf etdirməli, ixrac yönümlü məhsulların istehsalına daha çox diqqət yetirməliyik. Hesabat dövründə rayonumuzda taxıl istehsalının artırılması sahəsində müvafiq tədbirlər görülmüş, 39396 hektar sahənin taxılı biçilmiş, 80700 ton məhsul götürülmüşdür.Taxıl istehsalında əvvəlki ilə nisbətən azalmanın qarğıdalı dəni hesabına aradan qaldırılması üçün tədbirlər görülmüş, 1500 hektardan çox sahədə dənlik qarğıdalı əkilmiş, yüksək texnologiya ilə becərilməsi təmin olunmuşdur. Hazırda qarğıdalı yığımı aparılır. İndiyədək 1000 hektaradək sahə yığılmış, 10 min tondan çox qarğıdalı dəni götürülmüşdür.Taxılın toxumçuluğuna daha ciddi fikir verilmiş, toxum fonduna 5 min tondan çox dən ayrılmış, çeşidlənərək 4000 tonadək yüksək reproduksiyalı toxum əldə edilmişdir. Növbəti ilin məhsulu üçün bu il 45 min hektaradək taxıl əkilməsi nəzərdə tutulmuşdur. Bu ötən ildəkindən 5 min hektaradək çoxdur. İndiyədək 28 min hektaradək taxıl əkiləcək sahənin şumu çıxarılmış, 5 min hektardan çox sahədə arpa, 1000 hektaradək sahədə buğda əkilmişdir. Bir çox ərazilərdə taxıl əkini gecikdirilir. Odur ki, əkinin optimal müddətdə başa çatdırılması üçün bütün zəruri tədbirlər görülməlidir. Hesabat dövründə 10606 hektarda yonca, 1119 hektarda kartof, 1432 hektarda tərəvəz, 4000 hektaradək sahədə bostan, 10 hektarda günəbaxan, 15 hektarda yerfındığı, 200 hektardan çox sahədə soya, 237 hektarda şəkər çuğunduru, 100 hektardan çox sahədə qarabaşaq becərilmişdir. Sahələrdən 13738 ton kartof, 20500 ton tərəvəz, 70000 tonadək bostan, 20 tondan çox günəbaxan, 300 tonadək çuğundur istehsal edilmişdir. Bu göstəricilər üzrə məhsullar ötən ildəkindən çoxdur. Bostan, tərəvəz, şəkər çuğunduru, qarğıdalı dəni, soya yığımları davam edirilir. Ölkə Prezidenti Azərbaycana valyuta axınının təmin edilməsi məqsədilə ixracyönümlü məhsulların istehsalının xüsusi əhəmiyyət daşıdığını, pambığın da ixracyönümlü məhsul olduğunu və bu sahənin ciddi inkişaf etdirilməsini qarşımıza mühüm vəzifə kimi qoymuşdur.

**Həmin tapşırığın icrasını təmin etmək məqsədilə rayonumuzda bütün imkanlar təhlil olunaraq bu il 4027 hektar sahədə pambıq əkilmişdir. Becərmə işləri də aqrotexniki qaydalara uyğun aparılmış, sahələrdə bol məhsul yetişdirilmişdir. Artıq ay yarımdır ki, pambıq yığımı aparılır. Yığıma 2000 nəfərdən çox işçi qüvvəsi, 6 pambıqyığan maşın, digər maşın və mexanizmlər cəlb edilmiş, 2500 tondan çox pambıq tədarük olunmuşdur. Ümumilikdə pambıq əkini, becərilməsi və yığılması işinə rayon üzrə 4000 nəfərədək işçi qüvvəsi cəlb edilmişdir.**

**(ardı gələn sayımızda)**

**Məzahir ƏHMƏDZADƏ**